**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№357/2** **12 iyun 2023-cü il**

**Auditor təşkilatlarında ƏL/TM-ə qarşı mübarizə sahəsində daxili nəzarət sisteminin səmərəliliyinin müəyyən edilməsi üzrə metodik vəsait" barədə**

"Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" 2022-ci il 30 dekabr tarixli 781-VIQ nömrəli Azərbaycan Respublikası Qanununun qəbul edilməsi ilə əlaqədar "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun auditorlar tərəfindən tətbiqinə dair metodik materiallar toplusu"na (2010-2020-ci illər) dəyişikliklərin edilməsi barədə" Auditorlar Palatası sədrinin 2023-cü il 03 mart tarixli 1/8 nömrəli sərəncamının 2.7-ci bəndinə uyğun olaraq Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov və Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsi (E.İbrahimov, B.Qasımova) tərəfindən hazırlanmış "Auditor təşkilatlarında ƏL/TM-ə qarşı mübarizə sahəsində daxili nəzarət sisteminin səmərəliliyinin müəyyən edilməsi üzrə metodik vəsait"in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditor təşkilatlarında ƏL/TM-ə qarşı mübarizə sahəsində daxili nəzarət sisteminin səmərəliliyinin müəyyən edilməsi üzrə metodik vəsait" bəyənilsin (əlavə olunur).
2. Auditin sistemində icra intizamı və daxili nəzarət şöbəsinə (Z.Almazov) tapşırılsın ki, iki həftə müddətində "Auditor təşkilatlarında ƏL/TM-ə qarşı mübarizə sahəsində daxili nəzarət sisteminin səmərəliliyinin müəyyən edilməsi üzrə metodik vəsait"in auditor təşkilatları və sərbəst auditorlara göndərilməsi təmin edilsin.
3. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinə (E.İbrahimov) tapşırılsın ki, "Auditor təşkilatlarında ƏL/TM-ə qarşı mübarizə sahəsində daxili nəzarət sisteminin səmərəliliyinin müəyyən edilməsi üzrə metodik vəsait"ə dair auditor təşkilatlarının və sərbəst auditorların nümayəndələrinin iştirakı ilə cari ilin iyul ayında seminarın keçirilməsi təmin edilsin.
4. Auditor təşkilatlarına və sərbəst auditorlara tapşırılsın ki, daxili nəzarət sisteminin səmərəliliyinin qiymətləndirilməsini bu metodik vəsaitə uyğun həyata keçirsinlər.
5. Sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, "Auditor təşkilatlarında ƏL/TM-ə qarşı mübarizə sahəsində daxili nəzarət sisteminin səmərəliliyinin müəyyən edilməsi üzrə metodik vəsait"in "Audit.Qanunvericilik və normativ sənədlər" toplusunun nəşr ediləcək 12-ci cildinə daxil edilməsini təmin etsin.
6. Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının 2018-ci il 14 noyabr tarixli 305/5 nömrəli qərarı ilə bəyənilmiş "Auditor təşkilatlarında PL/TM-ə qarşı mübarizə sahəsində daxili nəzarət sisteminin səmərəliliyinin müəyyən edilməsi üzrə Metodik Vəsait" qüvvədən düşmüş hesab edilsin.
7. Bu qərarın və metodik vəsaitin mətnləri Auditorlar Palatasının internet səhifəsində və "Auditorun şəxsi kabineti" sistemində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**